# Risklərin İdarə Edilməsi üzrə Bankın Siyasəti

"DəmirBank" ASC-də Risklərin İdarə Edilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklarda korporativ idarəetmə standartlarının tətbiqi Qaydaları"na, "Risklərin idarə edilməsi üzrə Standartlar"ına, Kredit təşkilatlarında risklərin idarə edilməsinə dair Bazel Komitəsinin tövsiyyələrinə, Banklarda risklərin idarə edilməsi qaydalarına, Bankın Nizamnaməsinə, Strateji planına, mövcud qanunvericiliyə, Risklərin idarə edilməsi üzrə daxili Qayda və Prosedurlarına uyğun həyata keçirilir.

Risklərin idarə edilməsinin əsas məqsədi riskləri minimumlaşdırmaqla bankın mənfəətlə işləməsini təmin etməkdən və kapitalının artırılmasından ibarətdir. Risklərin idarə edilməsi prosesi, bankın fəaliyyəti üçün səciyyəvi olan risklərin müəyyən edilərək qiymətləndirilməsi, onlar haqqında müvafiq hesabatların hazırlanması, risklər üçün yolverilən limitlər təyin etmək və riskləri azaltmaqla onlara nəzarət edilməsi ilə həyata keçirilir. Risklərin qiymətləndirilməsi prosesi, bank tərəfindən tərtib olunmuş risklər xəritəsində ətraflı şəkildə əks etdirilir.